Bakı Slavyan Universitetinin
ELMİ ƏSƏRLƏRİ

УЧЕНЫЕ ЗАПИСКИ
Бакинского славянского университета

İctimai-siyasi elmlər Seriyası | 2019-№2 | Серия общественно-политических наук

## PSİXOLOGİYA, PEDAQOGİKA VƏ METODİKA

## ПСИХОЛОГИЯ, ПЕДАГОГИКА И МЕТОДИКА

**Cahangirova Lalə Vladimir qızı**
*Gəncə Dövlət Universiteti*
*e-mail: cahangirov@mail.ru*

# İBTİDAİ SİNİFLƏRDƏ ORFOQRAFİYA TƏLİMİ VASİTƏSİLƏ ŞAGİRD ÖZÜNƏNƏZARƏTİNİN TƏŞKİLİ İMKANLARI

***Açar sözlər:*** *orfoqrafiya, səhv, yazı, təlim, xətt, vərdiş, bacarıq, özünənəzarət, müqayisə, imkan*
***Ключевые слова:****орфография, ошибка, написание, обучение, линия, привычка, навыки, самоконтроль, сравнение, возможность*
***Key words:*** *spelling, typing, writing, training, line, habit, skill, self-control, comparison, opportunity*

Orfoqrafiya təlimində şagird özünənəzarətinin təşkili və inkişafı üçün geniş imkanlar var. Müəllimlərin hazırlığından, təcrübəsindən asılı olaraq həmin imkanlardan istifadənin yolları müxtəlifdir. Bununla belə orfoqrafiya təlimi zamanı şagird özünənəzarətinin təşkilində müvəffəqiyyət əldə etmək üçün yeni səmərəli vasitə və yollar axtarmağa böyük ehtiyac duyulur. Aydındır ki, orfoqrafik vərdişlərə tam yiyələnmədən öz fikrini yazılı şəkildə düzgün əks etdirmək çətin olur. Güman edirik ki, orfoqrafiya təlimində müqayisə priyomunun köməyi ilə şagird özünənəzarətini təşkil etmək mümkündür. Bu iş çox vacib bir məsələ kimi müəllimlərin qarşısında durmalıdır. Bəzi müəllimlər şagird özünənəzarətini orfoqrafiya təlimin-

də təşkil etməkdən yayınmağa çalışır və bunu işin çətin olması ilə əsaslandırırlar. Doğrudur, burada müəyyən qədər çətinlik vardır. Lakin bu prosesdə şagird gəldiyi nəticə, verdiyi cavab üzərində müstəqil düşünür, müqayisələr aparır, oxşar və fərqli cəhətləri tutuşdurur, şüurlu surətdə ondan müəyyən nəticələr çıxarır. Deməli, şagird gəldiyi yekun nəticənin doğruluğunu yoxlamaq məqsədilə öz fəaliyyəti üzərində axtarış aparır, bu və ya digər hadisəyə şüurlu münasibət göstərir, öz təfəkkürünü fəaliyyətə gətirir.

Təlimdə şagird özünənəzarətinə müqayisə priyomunun köməyi ilə nail olmağın bir əhəmiyyəti də ondan ibarətdir ki, şagirdlər öyrədiləcək hər hansı biliyin dəlillərlə ümumiləşdirilməsi və formalaşdırılması işinə qoşulurlar. Daha aydın desək, təlimdə öz əqli fəaliyyətlərinin düzgünlüyünə daha ehtiyatla yanaşmaqla, şagirdlərin diqqətini öyrədiləcək bu və ya digər məsələ üzərinə yönəltməklə onları psixoloji cəhətdən yeni biliyi daha keyfiyyətlə mənimsəməyə hazırlayır. Belə olduqda şagirdlərin diqqəti yeni tətbiq olunan məlumat üzərində daha dəqiqliklə mərkəzləşir, mənimsəmə mexaniki olmayıb, şüurlu xarakter daşıyır.

Orfoqrafiya təlimi zamanı şagird özünənəzarətini diqqət mərkəzində saxlamağın, bu zaman müqayisə priyomunun çoxcəhətli imkanlarından daha səmərəli istifadə edilməsinin üstünlüyünü təxminən ümumi şəkildə aşağıdakı kimi ifadə etmək olar:

1. Şagirdlərin yaradıcılıq və dərketmə qabiliyyətini inkişaf etdirir. 2. Bu və ya digər qaydaların öyrənilməsində şagirdlərin şüurlu fəaliyyətini təmin edir. 3. Şagirdlərə oxuduqları hər hansı şeyi şüurlu dərk etmək və ondan düzgün nəticə çıxarmaq bacarığı aşılayır. 4. Şagirdlərdə öyrədiləcək qaydalara maraq oyadır, onları öz nəticələrinin düzgünlüyünü yoxlamağa alışdırır. 5. Şagirdlərin müstəqil çalışmalarını və kəşf etmə qabiliyyətlərinin inkişafını təmin edir. 6. Öyrənilən qaydalar uzun müddət şagirdlərin yaddaşında qalır. 7. Şagirdlərin fərdi xüsusiyyətlərini tez öyrənməyə müəllimə imkan verir. 8. Şagirdlərdə müqayisə etmək, şeylərin oxşar və fərqli cəhətlərini müəyyənləşdirmək bacarığını inkişaf etdirir. 9. Şagirdlərdə oxuduqları hər hansı şeyə tənqidi yanaşmaq bacarığını formalaşdırır. 10. Şagirdlərə nəticələrin doğruluğunun yoxlanması hazır şəkildə verilmir, onlara düzgün nəticə çıxarmağı öyrənməyin yolları öyrədilir.

Deməli, orfoqrafik vərdişlərin aşılanmasında da öz əqli fəaliyyətlərinə, gəldikləri nəticələrə nəzarət misilsiz əhəmiyyətə malikdir. Buna görə də orfoqrafiya təlimində şagird özünənəzarətinin imkanlarından istifadəyə I sinifdən başlamaq lazımdır. Bu ən çox yazı işlərinin təshihində və orfoqrafik çalışmalarda tətbiq oluna bilər. Lakin müşahidələr göstərir ki, ibtidai sinif müəllimləri yazının təshihində səhvlərin altından xətt çəkib, üstündə düzünü yazmaq yolundan daha çox istifadə edirlər. Şübhəsiz, hələ öyrənilməmiş qaydalara aid sözlərdə buraxılan səhvlərin bu cür təshihi şagirdlərdə orfoqrafik vərdişlərin yaranması üçün yararlı yoldur. Məhz buna görə də bir çox metodistlər səhvlərin bu cür təshihini qiymətləndirirlər. A.V.Tekuçev yazır ki, səhvin (hərfin) qırmızı mürəkkəblə pozulması və

üstündən düzgün şəklinin yazılması elmi-nəzəri və praktik baxımdan səhvlərin təshihinin ən dogru yolu hesab olunmalıdır (1, s.64).

Səhvlərin bu cür dəzəlişi səhv yazılmış sözlə müəllimin düzəltdiyi sözü müqayisə etmək və öz səhvlərini başa düşməyə imkan verir. Lakin bütün səhvlər üzərində iş bu cür aparıldıqda şagirdlər öz səhvlərinə qarşı axtarış aparmağa meyl göstərmirlər. Daha aydın desək, bu cür təshihi həmin səhvlərin şagirdlər tərəfindən şüurlu dərk edilməsinə təkan vermir, onları səhvlər üzərində fəal işə yönəltmir. Belə halda şagirdlərə ancaq qiymətlərinə baxmaqdan başqa bir şey qalmır.

Psixoloji xüsusiyyətlərdən asılı olaraq hələ hər şeyi dəqiq dərk etmək qabiliyyətinə malik olmayan ibtidai sinif şagirdlərinin çoxu həmin səhvləri onun düzgün yazılışı ilə tutuşdurmağı və oradan düzgün nəticə çıxarmağı unudur. Digər tərəfdən onların qarşılarında müəyyən məqsədlər qoyulmadığından səhv yazılmış bu və ya digər sözlərin dəzgün yazılış qaydalarının nəyə əsaslandığını dərk edə bilmir və yadda saxlamaqda çətinlik çəkirlər.

Səhvlərin təshihində şagirdləri müəyyən çətinlik qarşısında qoyduqda isə onlar düşünür, müqayisə edir və nəticələr çıxarırlar: Məsələn, əgər şagird dovşan, palıd, Almaz sözlərini doşan, palıt, Almas kimi yazmışlarsa, müəllim səhvlərin təshihi zamanı doşan sözünün altından xətt çəkib haşiyədə qarşısında ona uyğun oxşar söz (dovşan)**,** palıtsözündəki t-nın altından xətt çəkib haşiyədə armud sözünü yazır. Sonra şagirddən altından xətt çəkilmiş sözlərlə haşiyədə yazılmış sözləri tutuşdurmağı tələb edir.

Bu zaman nəzərə alınmalıdır ki, «qoşa obyektlərdən birinə istinad edərək digərində olan oxşar əlamətlərin ardıcıl şəkildə üzə çıxarılması və bu əsasda ümumiləşdirmələr aparılması prosesi tutuşdurmadır» (2, s.53). “Qoşa cisimlər-dən və ya hadisələrdən birinə istinad edərək digərində olan oxşar əlamətlərin ardıcıl şəkildə üzə çıxarılması və bu əsasda ümumiləşdirmələr aparılmasına müqayisənin növlərindən biri olan tutuşdurma deyilir” (3, s.65). Tədqiqat göstərdi ki, prof. N.-M. Kazımovun bu elmi tərifinə tam söykənilərək aparılan tutuşdurmada şagirdlər öz səhvlərini asanlıqla müəyyənləşdirə və sözlərin düzgün yazılış qaydalarını uzun müddət yadda saxlaya bilərlər. Deməli, müəllim bu cür müqayisə tələb edən suallarla şagirdləri müəyyən çətinlik qarşısında qoyur, şagird isə tutuşdurma və qarşılaşdırma aparmalı olur, öz səhvləri üzərində özü düşünür, buraxdığı orfoqrafik səhvi tapır və düzəliş verir. Qoşa sait və samitlərin yazılışında buraxılan orfoqrafik səhvlərin aradan qaldırılması üçün isə müqayisə vasitəsilə belə bir problemli situasiya yaratmaq olar. Əgər şagirdlər saat sözündəki a saitinin birini buraxıb sat, hiss sözünü his, maaş sözünü maş, camaat sözünü camat, toqqa sözünü tokqa və s, kimi yazmışlarsa, onların qarşısında öz səhvlərini üzə çıxarmağa imkan verən belə çalışma qoymaq faydalı olar: «Sözlərin mənasına diqqət et və hər sözə aid bir cümlə yaz»:

| | |
|---|---|
| sat | saat |
| doğa | dovğa |

əmr əmir
his hiss
əsr əsir

Bu tələbdən sonra şagirdlər müstəqil tədqiqat aparmağa başlayacaqlar. Onlar əvvəlcə sözləri müqayisə edir və onların yazılışına fikir verir, sonra mənalarını müəyyənləşdirir, nəhayət onları mənalarına görə cümlədə işlədirlər. Beləliklə, onlar öyrənirlər ki, sat hərəkət bildirir, satmaq mənasında işlənir və bir a ilə yazılır. Saat sözü isə vaxtı bildirir və qoşa a ilə yazılır. İbtidai sinif şagirdləri yazıda ən çox da, də bağlayıcı və şəkilçilərinin yazılışında səhvlərə yol verirlər. Həmin səhvləri aradan qaldırmaq üçün müəllim sözlərin tam müqayisəsini, tutuşdurulması və ya qarşılaşdırılmasını tələb edən belə bir çalışma qoya bilər: «Aşağıdakı sözlərə aid cümlə tərtib et və mənalarını izah et».

məndə mən də
atamda atam da
Mahirdə Mahir də
Sevdada Sevda da

Şagirdlər həmin sözlər üzərində müqayisə apardıqdan, onları qarşılaşdırdıqdan (prof. Nürəddin Kazımovun ifadəsi ilə desək, müqayisə olunan obyektlərin yalnız fərqli cəhətlərini üzə çıxardıqdan) sonra müəyyənləşdirəcəklər ki, birinci sütunda yazılan sözlər ismin yerlik halında işləndiyindən da, də şəkilçidir, sözə bitişik yazılır, ikinci sütundakı sözlər iştirak bildirir, da,də bağlayı-cıdır, sözdən ayrı yazılmalıdır. Onlar təfəkkürü fəaliyyətə gətirən belə müqayisə-lərdən sonra müstəqil cümlə qura biləcək və həmin cümlənin düzgünlüyünə əmin olacaq, hətta yeri gəldikcə onun doğruluğunu əsaslandırmaqda çətinlik çəkməyə-cəklər. Təlimin belə qurulması həm şagirdlərin özünənəzarət imkanlarını geniş-ləndirir, həm də həmin sözlərin düzgün yazılış qaydası onların yaddaşında silinməz iz buraxır. Şagirdlər çalışmanı yerinə yetirdikdən sonra müəllim həmin sözlərin düzgün yazıldığı kartoçkanı yazı taxtasından asır, öz yazdığı sözlə yazı taxtasından asılmış sözü qarşılaşdırmağı və hər kəsə öz səhvlərini düzəltmələrini tapşırır. Şagirdlər həmin kartoçkaya əsasən səhvlərini tapır və düzəldirlər. Bu cür çalışmalar müəllimdən xeyli vaxt və zəhmət tələb edirsə də, şagirdlərə müqayisələr aparmağa, öz səhvləri üzərində müstəqil işləməyə və həmin sözlərin yazılış qaydasını şüurlu mənimsəməyə imkan verir. Orfoqrafik çalışmaların sistemi çox geniş olduğundan onların təlimi zamanı eksperimental siniflərdə həyata keçirilən şagird özünənəzarətinin təşkili yollarını bir yarımfəsildə əhatə etmək imkan xaricindədir.

Müşahidələr göstərdi ki, bəzi müəllimlər yalnız səhv yazılan orfoqramın altından deyil, bəzən bir hecanın, yaxud bütöv sözün altından xətt çəkirlər. Eksperimental siniflərdə belə müəllimlərə izah edildi ki, sözlərin altından anlaşılmaz xətlərin çəkilməsi ilk addımlarda şagirdləri çaşdırır, nədə səhv etdiklərini anlamağa imkan vermir. Ona görə də II və II siniflərdə yalnız səhv edilən orfoqramın altından xətt çəkilməlidir. Səhv orfoqram bir hərfdən, şəkilçidən və sözdən ibarət ola

bilir. Məsələn, həşərat sözündə çətin orfoqram ikinci hecadakı ə saiti, hərbi (xidmət) sözündə i şəkilçisi, kartof sözündə a saiti və f samiti çətin orfoqram hesab edilir. Bu sözdə eyni vaxtda iki səhv edildikdə (a saiti ə kimi, f samiti p kimi yazıldıqda) bütövlükdə morfemin özü orfoqram hasab edilir. Şagirdlərə özünənəzarət bacarıqlarının formalaşdırılması zamanı səhvlər üzərində iş apararkən tipik səhvlər diqqət mərkəzində saxlanmalıdır. Bəs hansı səhvlər tipik səhv hesab olunur? Şagirdlər tərəfindən əvvəlki dərslərdə bir neçə dəfə təkrarlanmış səhvlər tipik cəhvlər sayılır. Belə səhvlərin şagirdin özü tərəfindən müəyyən edilməsi və aradan qaldırılması üçün həmin səhvlərin və ya o tipdən olanların üzərində bir neçə dəfə məşq keçirilməli, növbəti qrammatik, orfoqrafik qaydaların mənimsənilməsi prosesində onlara bir daha qayıdılmalıdır.

Səhvlərin şagirdin özü tərəfindən müəyyən edilməsi və hesaba alınması müəllimin işini xeyli asanlaşdırır. Ona hansı istiqamətdə, hansı şəkildə hərəkət edəcəyini diktə edir. Təcrübə göstərir ki, hesabaalma müxtəlif variantda gedə bilər. Birincidə müəllim hər bir şagird dəftərinin conunda bir cəhifə ayırır, onun buraxdığı səhvləri həmin səhifədə əvvəl müəllim, sonradan şagirdin özü qeyd edir. İkincidə hər bir şagird üçün ayrıca kartoçka hazırlayır, hər kəsin səhvini özünəməxsus kartoçkada yazdırır. Belə kartoçkalar şagirdlərə fərdi iş aparmağa əlverişli imkan verir. Üçüncü variantda şagird səhvlərin qeydə alınması üçün ümumi dəftər götürür, hər şagird özü üçün 2-3 səhifə ayırır. Müəllim üçün olan ümumi dəftərin hər səhifənin başında bir şagirdin adı və familiyası yazılır. Kimsənin yol verdiyi səhvi öz qrafasında qeyd edir. Bu dəftərin köməyi ilə müəl-lim bütün tədris ilində şagirdlərin hansı səhvlərə yol verdiyini müəyyənləşdirilir və onlara qarşı müntəzəm və sistemli mübarizə aparır. Şagird də həmin qeydlərin köməyilə öz fəaliyyətinə və nəticələrinə nəzarət etmək imkanı qazanır. Nəhayət, dördüncüdə müəllim böyük bir kağız götürür. Şagirdlərin ad və familiyasıını həmin kağızda alt-alta yazır. Sonra hər kəsin buraxdığı səhvi öz qarşısında qeyd edir. Beləliklə, sinifdə buraxılan səhvlərin ümumi mənzərəsi kağızda alınır. Belə olduqda müəllim hansı orfoqrafik, qrammatik qaydaya aid iş aparacağını müəyyənləşdirir, öz metodik sistemini asanlıqla işə sala bilir. Məktəb təcrübəsi göstərir ki, yazı işində kobud və kobud olmayan səhvlər, hələ keçilməmiş qayda və orfoqramlarla bağlı səhvlər və eynitipli səhvlər özünü göstərir.

Imla yazılarında buraxdıqları səhvlərin aradan qaldırılmasına şagirdlərin özlərinin cəlb edilməsi özünənəzarət bacarıqlarının formalaşdırılması baxımından xüsusi əhəmiyyət kəsb edir. Təshihdən sonra təlim fəaliyyətinin nəticələrinin nəzərdən keçirilməsinə təlabatın və buraxılan nöqsanların şagirdlərə çatdırılması orfoqrafiya təlimində işin başlanğıcıdır. Burada əsas məsələ şagirdlərdə özünənə-zarətə ehtiyacın, öz səhvlərinə qarşı şüurlu münasibətin yaradılması və qüsurlar üzərində işlədilməsidir. Ekperimental sinfin müəllimləri səhvlərin aradan qaldırılmasında müxtəlif variantlardan istifadə edirlər. III sinifdə "Qoşasaitli sözlərin yazılışı və tələffüzü" mövzusu üzrə yoxlama imlada şagirdlər inşaatçı sözündəki a saitlə-

rindən birini buraxmışlar. Müəllim mətndə işlənən eyni qoşasaitli sözlərin seçilməsini tələb edir. Şagirdlər saat, maarif, maaş, camaat və s. sözləri seçirlər. Sözlər təhlil olunur, yazılışı və tələffüzü arasındakı fərq açılır. Onlara başa salınır ki, bu sözlər sat, marif, maş, camat kimi tələffüz olunur, lakin yazılışında qoşa aa saitləri işlənir. Bundan sonra digər eyni qoşasaitli sözlər üzərində də belə işlər gedir. Deməli, bu sözlərin birinin yazılışında səhvə yol vermək, həmin tipdən, qəbildən olan bir çox sözlərin düzgün yazılışını bilməmək deməkdir. Eyni cür orfoqramlı sözlərin yazılışına bu priyomun tətdiqi şagirdin öz yazılarındakı orfoqrafik səhvləri duymalarında, onların müəyyən edilməsində və səhvlərin aradan qaldırılmasında əsaslı rol oyna-yır. Ona görə də təlim prosesində eyni tipli sözlər üzərində aşağıdakı kimi geniş iş aparılması zəruridir:

1. qq, bb, dd, yy və s. qoşa samitlərlə yazılan sözlər: saqqal, çaqqal, diqqət, toqqa; Məhəbbət, mürəbbə; yeddi, addım; Səriyyə, hədiyyə və s.

2. st samit birləşməsi ilə başlanan sözlər: stansiya, stadion, stol və s.

3. qrsamit birləşməsi ilə başlanan sözlər: qrup, qrip, qrim, qrafin və s.

4. pl samit birləşməsi ilə başlanan sözlər: plaş, plan, plov və s.

5. kr samit birləşməsi ilə başlanan sözlər: kran, Krım, krem və s.

6. br samit birləşməsi ilə başlanan sözlər: briqadir, brezent, briqada və s.

7.tr samit birləşməsi ilə başlanan sözlər: traktor, tramvay, trolleybus və s.

8. Sonu **st** samit birləşməsi ilə qurtaran sözlər: dost, dəst, bust və s.

9. Sonu rd samit birləşməsi ilə bitən sözlər: qurd, dörd, dərd və s.

10. Sonu ng samit birləşməsi ilə qurtaran sözlər: nəhəng, pələng, fişəng, qəşəng, tüfəng və s.

11.io sait birləşməsi ilə yazılan sözlər: radio və s.

12. ai sait birləşməsi ilə yazılan sözlər: Nailə, şair, ailə, mail, sait, dairə və s.

Deyilişi ilə yazılışı arasında fərq olan sözlərin (kompot, zanbaq və s.) cümlədə işlədilməsi zamanı buraxılan səhvləri üzə çıxarmağı və aradan qaldırmağı onların düzgün yazılış qaydasını fonetik təhlil etməklə, onların səs və hərf tərkibini müqayisə yolu ilə müəyyənləşdirməklə şagirdlərə öyrətmək mümkündür. Həşarat, qəhrəman, televizor, ekskalator və s. kimi sözləri bir neçə dəfə düzgün yazılış qaydası ilə müqayisə edərək təkrar yazdırmaqla, lazımi orfoqramın altından xətt çəkdirməklə şagirdlərə çatdırmaq olar. Yerli dialekt və şivənin təsiri ilə səhv yazılan sözlər (gələcəyəm-gələcəm, gətirər-gətrər, məktəbimiz-məktəbmiz və s.) mütləq qrammatik cəhətdən müqayisəli şəkildə təhlil edilməli, onlar kök və şəkilçiyə ayrılmalıdır.

Tədqiqat göstərdi ki, orfoqrafik təlim zamanı şagird özünənəzarətinin formalaşmasında, onların buraxdıqları səhvlərin müəyyən edilməsi və düzəldilməsində "Orfoqrafiya lüğəti"ndən istifadə edilməsi məqsədəuyğundur. Çünki, şagirdlər imlada müəyyən sözlərin (xüsusilə yazılışı heç bir qayda ilə yoxlanmayanların) yazılışında səhv etmişlərsə, onda müəllim şagirdlərdən tələb edir ki, ilk addımlarda (sonradan şagirdlər bunu özləri müstəqil edirlər) səhv yazdıqları sözləri "Orfoqrafiya lüğəti"ndə tapsınlar və səhvlərini düzəltsinlər.

## ƏDƏBİYYAT

1. Текучев А.В. Методы обучения. М., Просвещение, 2007, с.214.
2. Kazımov N.M. Müqayisənin nəzəri və əməli problemləri. Ağlın sönməz məşəli. Bakı: Çaşıoğlu, 2003, 96 s.
3. Azərbaycan Respublikası təhsil sahəsində islahat proqramı. Bakı: 1999, 38 s.
4. Kazımov N.M. Məktəb pedaqogikası: Dərslik (Ali pedaqoji məktəblərin bakalavr pilləsi tələbələri, habelə aspirant və dissertantlar, müəllimlər üçün) (beşinci nəşri). Bakı: OKA Ofset, 2009, 436 s.

**Джахангирова Лала Владимир гызы**

**Возможности для самоконтроля учащихся через обучение орфографии в начальных классах**

**РЕЗЮМЕ**

Исследование показало, что целесообразно использовать «Словарь правописания» при формировании у студентов самоконтроля во время обучения правописанию, чтобы выявлять и исправлять ошибки, которые они допускают. Потому что, если ученики ошибаются в написании определенных слов (особенно в средствах проверки правописания), тогда учитель попросит учеников посмотрет орфографический словарь и исправить написанное ими слово на первом этапе (а затем ученики сделают это самостоятельно) в своем правописании.

**Jahangirova Lala Vladimir**

**Opportunities for students' self-control through the spelling training in the elementary grades**

**SUMMARY**

The research showed that it is advisable to use the "Spelling dictionary" in the formation of student self-control during the spelling training, to identify and correct the mistakes they make. Because if students make a mistake in spelling certain words (especially spelling checkers), then the teacher will ask students to correct the spelling they typed in the first step (and then the students do it independently) in their spelling.

*Rəyçi: prof. Şahin Tağıyev*